# "ƏDƏBİYYAT MƏNİM HƏYATIMIN RİTMİDİR"

*Pedaqoq-jurnalist Oqtay Abbasın*
*yazıçı-dramaturq Hüseynbala*
*Mirələmovla müsahibəsi*

- *Hüseynbala müəllim, sizin "Tənha durna uçuşu" adlı maraqlı nəsr kitabınız "Gənclik" nəşriyyatında çapdan çıxandan sonra arada fasilə yarandı. Bu nəfəsdərmə, özünəqapılma nəylə bağlıydı: nəsə yazıb çap etdirmirdiniz, ya ümumiyyətlə, arada yazmağın daşını atmışdınız?*

- Əlbəttə, yazırdım, çap elətdirməyə tələsmirdim. "Saxla zamanı, gələr zamanı" məqamını gözləyirdim. Həm də mən hər yazını qoltuğuma vurub redaksiyaların qapısını döyən deyildim. Bədii sözə qarşı özünəməxsus tələbkarlığım, qısqanclığım vardı. Çoxlu hekayə və povestlərim nəşrini gözləyir və mən dönə-dönə onların üzərinə qayıdıram. Söz mənimçün təmiz ab-hava, əhval-ruhiyyə, ovqat, ədəbiyyat - həyatımın ritmidir və əgər desəm ki, 11-12 yaşlarından bədii sözlə nəfəs alıram, qəribə görünməsin. 1967-ci ildə "Ulduz" dərgisində çap edilən "İzlər" adlı lirik hekayəm elə orta məktəb illərinin məhsuluydu. Habelə, "Tənha durna uçuşu" adlı kitabımda toplanan bədii nümunələrin hamısı mövzusunu o müqəddəs illərdən alıb. Bir sözlə, həyatımın ritmini pozmağa ixtiyarım yoxdur.

- *"Tənha durna uçuşu" kitabınızdakı hekayələrində incə lirizm, psixoloji ovqat, qəhrəmanlarınızın daxili dünyasına nüfuz eləmək səyiniz hər cür pafosu, təsvirçiliyi üstələyib. Nisbətən irihəcmli "Xəcalət" povestinə, "Güllələnmiş heykəllərin fəryadı" essesinə isə publisist ruh hakimdir. Bu, zamanın diktəsindən, dövrün tələbindən irəli gəlmir ki?*

- Səməd Vurğunun sözüdür: "Yel kimi ötməsin vaxt üstümüzdən". Zaman izsiz ötmür. Bir də axı hər şey yaş dövrünün öz tələbləri, öz problemləri, öz hissləri-duyğuları var. Yazıçı 25 yaşında qələmə aldığını 50-dən sonra yaza bilməz. Çünki bunlar tamamilə bir-birindən fərqli, ziddiyyətli yaş mərhələləridir. Hər dövrün cəmiyyətə, təbiətə, ətraf mühitə baxış bucağı var. Sovet dövründə böyük bədii sözə, təfəkkürə qadağa qoyulmuşdu. Ən qüdrətli ədib müxtəlif üsullara, sətiraltı mənalara üstünlük verməklə vəziyyətdən çıxış yolu tapırdı. İndi senzura yoxdur, söz qabığından çıxıb və tamam azaddır.

Psixoloji lirizm mənim canımda-qanımda, sözümün ruhundadır. Doğrudur, "Xəcalət" real həyat həqiqətlərinə söykənib, ancaq lirik-kövrək səhnələrdən xali deyil. Ayrı-ayrı faktlarda, hadisələrdə riyazi məntiq var, bədiilik paltar kimi əyinlərinə biçilib. Əgər belə olmasaydı, quru publisistika ilə heç nə demək mümkün deyildi. "Güllələnmiş heykəllərin fəryadı" haqqında deyilən fikirlə isə razılaşmıram. Əgər burda Ağabəyim Ağanın, Vaqifin, Natəvanın, Üzeyir bəyin, Bülbülün ruhlarının söhbətlərinə, etiraflarına qulaq asırıqsa, hansı publisistikadan söhbət gedə bilər? Yalnız tarixi ardıcıllığı gözləməyə çalışmış, ruhların fəryad

qoparan dialoqunu forma şəklinə salmışam. Əlbəttə, geniş izahata lüzum görmürəm, hər iki əsər oxucu kütləsinin mühakiməsinə verilib və rəngarəng rəylər, resenziyalar həmin əsərlər barədə çox şey deyir.

*- Hüseynbala Mirələmov hansı əsərində öz obrazını yaradıb?*

- Doğrudur, bir az da kobud səslənən belə bir atalar sözü var: "mal yiyəsinə oxşar". Hər bir yazıçı həm də, hardasa özünü ifadə edir, özünü yazır, öz əsərinə oxşayır. Amma sırf avtobioqrafik əsərlər, tərcümeyi-hal xarakterli bədii nümunələr də var.

Rus şairi Yevgeniy Vinokurovun belə bir sözü var: "Mənim bütün yazdıqlarım tərcümeyi halımdır". Qələm sahibi rastlaşdığı hadisələri, həyatda gördüklərini içindən keçirir. Daxildə gedən zəngin yaradıcılıq prosesi duyğulara, hisslərə qol-qanad verir, sənət adamının iç dünyasına yol tapan nə varsa, konservləşir, məhsul şəklini alır. Yalnız ondan sonra yazıçı-şair ağ kağızla üz-üzə qalır, düşüncələrini vərəqlərə köçürür. Xalq şairi Məmməd Arazın məşhur misraları yadınızdadırmı? "Anamdan, bacımdan gizlətdiyimi, qələmdən, kağızdan gizlətməmişəm". Sualınızın ikinci hissəsinə təxminən cavab verdim. Yəni, bədii əsərin yazıçının tərcümeyi-halı olduğu fikrilə razıyam. "Tənha durna uçuşu", "Mərufun qələmi" hekayələrində, "Xəcalət" povestində Hüseynbala Mirələmovun surətini görmək o qədər də çətin deyil.

*- "Xəcalət"dəki Murad Hüseynbala müəllimin prototipi hesab oluna bilərmi?*

- Bəli, elədir ki, var. Murad rəğbət bəslədiyim obrazdır. O, yarı Hüseynbaladır, yarı heç Hüseynbala deyil. İdeal insan surətdir və mən özüm də onu çox sevirəm. Ancaq bu özünəvurğunluq kimi qəbul olunmasın və o demək deyil ki, mən özümü çox istəyirəm, başqalarını az...

*- Son vaxtlar nəşr və publisistik kitablarınız çap olunub. Müxtəlif qəzet və jurnallarda hekayələriniz, povestləriniz çıxıb. Teatrlar "Vicdanın hökmü" dramınızı (N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı və Gənclər Teatrı) tamaşaya qoyub. Telefilmləriniz çəkilib. Eşitdiyimizə görə, qədim ənənələrə malik Gəncə Dövlət Dram Teatrı pyesə yenidən müraciət edib. Göz dəyməsin, bu qibtəedəcək məhsuldarlığınızla keçmiş boşluğun yerini doldurmusunuz?*

- Bilmirəm, kim necə adlandırır, adlandırsın. Mən çap olunmaq üçün möhkəm acmışdım. Yağış dəyməyən dəmyə torpaq susadığı kimi. Hələ çap üzü görməyən neçə-neçə povestim, hekayəm var, mən onları indi üzə çıxarmağı layiq bilmirəım və həmin əsərləri dönə-dönə işləyir, təkrar-təkrar düzəldirəm. Necə deyərlər, süzgəcimdən keçirəndən sonra mətbuata verəcəyəm. Məncə, hər bir yazıçının içində alternativ oxucusu var. O, yazdığını ilk dəfə oxucusunun mühakiməsinə verir və onunla təkbətək dialoqa girir. Bəyənilsin, ya bəyənilməsin, qismən bəyənilsin! Hökm yalnız bu dialoqdan sonra verilir.

*- Bu yaxınlarda "525-ci qəzet"in iki sayında sizin "Həyat eşqi" adlı yarımfantastik povestiniz dərc edilib. Deyəsən, bu ədəbi janra ilk dəfə müraciətiniz uğurlu alınıb. Povest oxucular tərəfindən rəğbətlə qarşılanıb.*

- Əlbəttə, müəyyən təcrübə əldə edəndən sonra keyfiyyət dəyişikliyi yüksələn xətt boyunca getməlidir. Tənqidçi Vaqif Yusifli "Həyat eşqi"ni oxuyan kimi mənə zəng vurdu, orijinal fikirlərini bölüşdü. Onun söylədiklərinə inansaq, povest təkcə bu janrın qaranlıq quşu deyil, həm də yaradıcılığına sıçrayışdır, təkandır. Bilirsiniz, elmi-texniki tərəqqi bəşəriyyətin həyat tərzində, davranışında intibah yaradıb. Bu oyanışın elementləri başqa xalqların ədəbiyyatlarında əks-səda tapır, bizim ədəbiyyatımıza bir az ləng yerişlə gəlib çıxır. Bu boşluq məni belə bir əsər yazmağa vadar elədi. Siz yəqin fikir vermisiniz, "Həyat eşqi"ndə bir konkret insan obrazı yoxdur...

*- Əvəzində insanın arzuları, diləkləri var. Düzdür, povestin baş qəhrəmanı "Qartalı" mifik obraz səviyyəsinə yüksəltmisiniz, istəklərinin reallığını yalnız Tanrının qüdrətindən asılı etmisiniz. Amma yenə həyatında iki-üç dəfə dəyişən insan nəyə çevrilir-çevrilsin, mütləq insan olaraq qalır, insan olaraq mübarizə aparır, hətta küfr edib Allahın müxalifinə çevrilmək istəyir, etiqadını-etimadını, inamını-əqidəsini dilə gətirib Yaradanın iradəsinə təsir göstərir.*

- Oqtay müəllim, bu dedikləriniz maraqlı mühakimələrdir. Görünür, povesti diqqətlə oxumusunuz.

*- Üzr istəyirəm, hələ fikrimi tamamlamamışam. "Həyat eşqi"ndə bəşər övladı üçün ədəbi bəla, fəlakət mənbəyi sayılan "Qorxu" və "Şər"ə maraqlı, həm də ibrətli bir münasibət sezilir: qorxunun, şərin dərk olunması və təhlükə. Bu anlayışlar və onların ifadə etdiyi anlayışlar arasında qəribə bir bağlılıq görünür. Belə çıxır ki, hissiyyatın, intellektin inkişafı qorxu, şər hissi ilə paralel inkişaf edir. Yeri gəlmişkən, qeyd edim, psixologiyanın nailiyyətləri artıq bu məsələni - intellektlə qorxu arasında düz mütənasib asılılıq olduğunu sübuta yetirib.*

- Qorxu və Şər xofu cəmiyyəti həmişə kölgə kimi izləyib, bəşəriyyəti təsir altına alıb. Dünya müharibələri və onları törədən ayrı-ayrı fatehləri, sərkərdələri yada salaq: Makedoniyalı İsgəndır, Atilla, Çingiz xan, Batı xan, Əmir Teymur, Sultan Səlim, Şah İsmayıl, Napaleon, Hitler, Stalin... Onlar hamısı qaniçən olmayıb və müəyyən sivilizasiyalar bu padşahların adları ilə bağlıdır. Eyni zamanda müəyyən xalqların dirçəlişində fantastik rol oynayıb, əbədiləşən bu adlar tarix səhnələrinin möhürləridir. Haqqında yüzlərlə bədii əsər yazılıb, yazılacaq da.

"Xəcalət" povestində Heydər Əliyev obrazı var. Mən real faktlara, ştrixlərə, olmuş hadisələrə əsaslanaraq cənab prezidentin surətini canlandırmış, Heydər Əliyevi Şərin, Xofun, Qorxunun, Rəzalətin, Xəyanətin durduğu qütbün əks tərəfində qoymaqla ona məhəbbət və sevgimi izhar elətdirmişəm. Heydər Əliyev Azərbaycanın nicat obrazı, sədaqət rəmzidir. Qarabağ hadisələrinin şahidi kimi deyirəm: - Əgər Heydər Əliyevin kölgəsi Bakıda da olsaydı, düşmən cəsarət edib üstümüzə ayaq açmazdı. Yalnız maymaq ölkə başçılarının səbatsızlığı, acizliyi, siyasi kütlüyü, fəhmsizliyi başımıza indiki oyunları gətirdi.

*- Əlbəttə, ədəbiyyatın müqəddəs vəzifələrindən biri insanları tərbiyə eləmək, onları daxilən saflaşdırmaqdır. Bu cəhət sizin bütün əsərlərinizdən*

*qırmızı xətlə keçir. Sizcə indiki insanda daha çox çatışmayan və deməli, ədəbiyyatın köməyi ilə aşılanması mümkün olan keyfiyyət hansıdır?*

- Müharibə - fəlakətdir, hər şeyin məhvidir. Təkcə insanın yaratdıqları, kəşfləri, icadları məhv olmur, həm də insanın özü cismən ölür, şikəst olur, ağıl çaşır, nəsil kəsilir. Ona görə müharibənin özünü sıxışdırmaq, aradan götürmək, məhvə məhkum etmək gərəkdir. Müharibə kəlməsini dilçilikdən yox eləmək, şüuralardan təmizləmək lazımdır ki, bəşər sivil münasibətlərə meydan açsın. Bu mənada sözün qüdrətinə ehtiyac duyulur və bu qüdrət reaktiv təyyarələrin, nüvə silahlarının qüdrətindən az əhəmiyyət kəsb eləmir.

- *Müharibə bədii ədəbiyyatın ədəbi mövzusudur. Atəşkəs elan olunsa da, iki qonşu dövlət arasında müharibə ocağı sönməyib və ölkəmiz müharibəyə həmişə hazır olmalıdır. Son zamanlar Qarabağ müharibəsinin bədii ədəbiyyatımızda lazımınca əks olunmadığından şikayətlər eşidilib. Həqiqət var: müharibədən düzgün nəticə çıxarılmasında bədii ədəbiyyatın rolu əvəzsizdir. Üzünüzə demək olmasın, bu sahədə sizin əsərlərinizin xidməti çoxdur. Bir qədər də planlarınız barədə...*

- Əgər həqiqəti zərrə qədər də olsa, xalqıma çatdıra bilmişəmsə, özümü bəxtəvər sayıram. Lakin nə qədər ki, Azərbaycan torpaqları düşmən tapdağı altındadır, başımızı dik tutmağa, lovğalanmağa mənəvi haqqımız yoxdur. Qaldı, yaradıcılıq planları məsələsi, ümumiyyətlə, bəyənmədiyim sözdür. Bədii söz yazıçını haçan tutur, o zaman qələmə sarılır, qabaqcadan hazırlıq görür.

- *Yeni çap olunan "Mars" jurnalı barədə sözünüz varmı?*

- Qədəmləri mübarək... Adını, özünü doğrultsun, dünya ədəbiyyatından nümunələrə səhifələrində yer ayırsın, elmə güzgü tutsun.

**"Mars" jurnalı**
**№5-6. 2003**

# İŞIĞIN İZİNDƏ ÇIRPINAN ÜRƏK

Onun qələmindən çıxan, mətbuatda mütəmadi olaraq işıq üzü görən hekayələri, esseləri, povestləri, romanları, dram əsərləri, publisistik məqalələri inandırıcı duyğuların, həyati düşüncələrinin, qəlbdən gələn həqiqətlərin təcəssümüdür.

Onun həmişə nikbin, bəzən də çılğın bir ehtirasla təsvir və tərənnüm etdiyi insanlar, hadisələr heç kəsə yad deyil, dövrün, zamanın məhsuludur. Ən başlıcası isə, bu günümüzə, sabahımıza, bir sözlə, gələcəyimizə olan inamın, bəşəri hisslərin təntənəsidir.

Söhbət son dərəcə geniş təfəkkürlü, dünyaya, insanlara öz münasibəti olan istedadlı yazıçı-publisist, gözəl dramaturq Hüseynbala Mirələmovun yaradıcılığından və bir şəxsiyyət kimi formalaşmasından gedir. Mən burada deyəsən, jurnalist sözünü unutdum. O, həm də bizim həmkarımızdır, desəm, səhv etmərəm. Axı, Hüseynbala müəllim hələ tələbəlik illərində qəzetdə işləmişdir. Onun mətbuatda dərc olunan çoxsaylı ictimai-siyasi mövzudakı publisistik məqalələrin yazılış manerasına hər birimiz, həsəd apara bilərik. Bəli, Hüseynbala Mirələmovun yaradıcılığı, imzası geniş oxucu kütləsinə artıq çoxdan tanışdır. Sən demə, hələ 14 yaşında ikən qəzetdə ilk hekayəsi dərc olunan bu istedadlı oğlanın xəmiri ədəbiyyatdan yoğrulubmuş. Bu sətirlərin müəllifi Hüseynbala müəllim yaradıcılıq ilə 40 il bundan qabaq tanış olub. 1961-ci ildə Azərbaycan Dövlət Dillər Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra Respublika Komsomolu Mərkəzi Komitəsinin orqanı olan "Azərbaycan pioneri" (indiki "Savalan") qəzetində işləyirdim. Məktublar şöbəsinin müdiri olduğuma görə redaksiyaya gələn bütün poçt zərfləri burada qeydə alınandan sonra lazımi şöbələrə çatdırılırdı. O vaxtlar uşaqların və yeniyetmələrin ən populyar mətbu orqanı olan bu qəzet 300 min, 400 min, bəzi illərdə isə, hətta yarım milyon tirajla çap olunurdu. Həmin illər Lənkərandan məktəbli Hüseynbala Mirələmov adlı adını ilk dəfə eşitdiyimiz bir nəfərdən tez-tez məktub alardıq. Onunla ilk tanışlığım da məhz bu məktublar vasitəsilə olub. Beləcə, mən yəqin ki, özündən və doğmalarından sonra onun yazılarının ilk oxucusu olmuşam. Uşaq təxəyyülünün məhsulu olan bu hekayələr, oxuduğu məktəbin həyatını əks etdirən bu şirin dilli yazılar onun ədəbiyyat aləmində atdığı ilk kövrək addımları idi.

Elə düşünürük ki, orta məktəbi bitirdikdən sonra, bir nəsr həvəskarı, ədəbiyyat vurğunu kimi bu peşənin dalınca gedəcək. Amma, qəribə də olsa belə olmadı. O, başqa peşəni seçdi. Necə deyərlər, lirikadan fizikaya keçdi. Mühəndis olmaq qərarına gəldi. Bəlkə də bu ulu Tanrının ona bəxş etdiyi tale qisməti imiş. Və bu sahədə çox böyük uğurlar qazandı. Bəli, Hüseynbala müəllim Azərbaycan Politexnik İnstitutu bitirdikdən sonra təhsil aldığı peşəsinə sadiq qaldı və bu sahədə pillə-pillə yüksəldi. İş icraçısı, sahə rəisi, baş mühəndis, qaz təmir-tikinti idarəsinin rəisi, trest müdiri, Dövlət Yanacaq Komitəsi sədrinin müavini və nəhayət Azərbaycan Qaz Emalı zavodunun direktoru 1988-ci ildən rəhbərlik

etdiyi bu zavodu qısa müddət ərzində iqtisadi və sosial inkişaf cəhətdən güclü bir müəssisəyə çevirmək, onu öncül mövqeyə çıxarmaq üçün böyük işgüzarlıq, tükənməz səy və bacarıqdan əlavə həm də istedad lazım idi. Təsadüf deyil ki, nüft və qaz sənayesi sahəsində çalışdığı illər ərzində əldə etdiyi uğurlara görə o dəfələrlə dövlət mükafatlarına layiq görülüb. 1976-cı ildə Sovtlər İttifaqının "Lenin ordeni"ndən sonra, ikinci ən ali mükafatı olan "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunub. Son dörd ildə Müstəqil Dövlətlər Birliyi ölkələrinin hökumətləri, MDB Parlament Assambleyası və Rusiya İslahatçılar İttifaqının dəstəyi ilə keçirilən ənənəvi "MDB-nin - İlin direktoru" müsabiqəsinin laureatı adına layiq görülüb. Birliyin 100 ən yaxşı elm və sənaye işçisi arasında yer alıb. Bəli, texnika elmləri namizədi Hüseynbala Mirələmov Müstəqil Dövlətlər Birliyinin elm və sənaye liderləri arasında öndə gedənlərdən, Azərbaycan şərəfini belə mötəbər formalarda ləyaqətlə qoruyan bir insandır. Bu il isə istedadlı qələm sahibi daha bir mükafata, Qarabağa həsr olunmuş "Xəcalət" povestinə görə "Qara qalxan" mükafatına layiq görülüb.

Bəli, Hüseynbala müəllimin əmək fəaliyyəti ilə bədii yaradıcılığı bir vəhdət təşkil edir. Hər iki sahədə uğurlar çoxdur. Biz bu yazımızda əsas etibarilə onun bədii yaradıcılığı haqqında söhbət açacağıq. Hüseynbala müəllim bu sahəyə ayrıca vaxt deyil, demək olar, bütün ömrünü həsr edib. Bir az yuxudan, bir az yemək vaxtından, istirahətdən "oğurlayıb" işə, yaradıcılığa sərf edib. Bu işə sərf olunan vaxtın müəyyən hissəsi onun ömründən, dincliyindən qoparılmış yarpaqlardır. Adi yaşayış məntiqini pozub öz canına daha çox qəsd edən, daha artıq çalışan, işləyən, insanlara nəsə bəxş etməyə, xeyir verməyə səy edənlər heç şübhəsiz ki, adi adamlardan daha ucada dururlar. Son dövrlər hamının qibtə edəcəyi (əlbəttə, yaxşı mənada) bir məhsuldarlıq nümayiş etdirən ədib, təkcə son iki ildə beş samballı kitabın müəlifidir. Biz hələ mətbuatda işıq üzü görən hekayələrin, povest və romanlardan parçaları, poetik ruhda yazılmış miniatürləri, esseləri, publisistik məqalələri demirik. Bəli, o, öz bənzərsiz yazıları ilə, yeni-yeni ədəbi müjdələri ilə oxucuların görüşünə tez-tez gəlir.

Onun əsərlərində müasirlərimizin problemləri, sosial-ictimai, ailə-məişət qayğıları, insan amalı, onun xarakteri tam dolğunluğu və reallığı ilə öz bədii-fəlsəfi əksini tapır. Mən bu yerdə bir haşiyə çıxıb görkəmli şairimiz, böyük vətənpərvər Bəxtiyar Vahabzadənin Hüseynbala Mirələmovun "Xəcalət" povestinə həsr olunmuş "Xəcalət - xəcalətli günümüzün güzgüsü" başlıqlı yazısından bir parçanı əziz oxucularımızın diqqətinə çatdırmaq istəyirəm: "Hörmətli Hüseynbala Mirələmov , "Xəcalət" povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boödu, göz yaşlarını saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə, o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq (mənim bu barədə "Utanıram" adlı şerim var). Əsərinizlə məni bir daha utandırdığınıza görə sizdən

üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq, qəlbi və vicdanı olan hər bir kəs üçün ağırdır.

...Bir də tamam başqa sahənin adamı olan Hüseynbala Mirələmov kimi bir oğul əgər Qarabağ dərdimizi ustad yazıçı səviyyəsində qələmə ala bildisə, bu millətin qüdrətinə inanmamaq mümkün deyil".

Bu sözlər böyük şairin Vətən eşqindən, çırpınan qəlbindən gələn qəmli-qüssəli pıçıltılardır. Hüseynbala Mirələmovun digər əsərləri, bütün yaradıcılığı barədə tanınmış yazıçı və şairlərimiz, alimlərimiz, tənqidçilərimiz, jurnalistlərimiz gözəl sözlər demiş, xoş rəylər söyləmiş, onun yaradıcılığını, bədii təfəkkürünü həmişə yüksək qiymətləndirmişlər. Bu günlərdə istedadlı qələm sahibinin daha bir əsəri işıq üzü görüb, "İşığın izi ilə" adlanan kitab böyük öndər, xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr olunmuş tarixi-ədəbi essedir. Əsərdə böyük rəhbərin öz xalqından, canındab artıq sevdiyi millətindən cismən ayrıldığı anlar təsvir olunur. Bütün mübarizələrdə həmişə qalib gəlmiş yenilməz sərkərdənin, günəş şüaları tək hər tərəfə şəfəq saçan ümumbəşəri dahinin həyatını və obrazını tərənnüm edən bu tarixi esse tək 8 milyonluq Azərbaycan vətəndaşını deyil, həm də bütün dünyada yaşayan 40 milyonluq azərbaycanlının ən rəhbərinə həsr etdiyi ayrılıq nəğməsi, vida simfoniyasıdır. Əsəri oxuduqca hiss edirsən ki, müəllif bu qəfil və gözlənilməz ağır itkidən çox sarsılıb. Necə deyərlər, özünə yer tapa bilməyib. Bəlkə də həmin acılı və kədərli anlarda özünə bir həmdərd də axtarıb. Böyük Füzuli deyərdi: "dərd çox, həmdərd yox..." Yəqin ki, dünyada həmdərdin olmamasından böyük dərd, iztirab yoxdur. Təsəvür edin, Füzuli kimi, bir düha da, qəmə və kədərə həmişə üstün gəlməyi bacaran bir insan da ondan şikayətlənir. Amma həmin günlər Hüseynbala müəllimin həmdərdi çox idi.

Lap çox. Milyonlar, on milyonlar, bütün türk dünyası bütün dünya azərbaycanlıları...

Rəhbərə olan sonsuz sevgi və məhəbbətlə yazılmış əsər yazıçının kədərli. Ağrılı düşüncələri ilə başlayır: ""Deyirlər ki, qara xəbər yel qanadlıdır. Hər halda mən bu xəbəri bir neçə saat gec eşitdim. Bu xəbər okeanın o tayından milyon ildən bəri yol gələn dünyanın başı üstdən keçib gəlmişdi. Bu xəbər yol gəldiyi anlarda dünyanın özündə nələr baş vermişdi. Hər bir insan özü bir dünyadır. Hər bir insan özü bir xəbərdir. Bu xəbərlərin ağı da var, qarası da. İlk dəfə inandım ki, xəbərin rəngi var. Hər halda mənə elə gəlir ki, bu xəbəri eşidən Azərbaycan bir anlığa dondu. Bu xəbər düşüncələrə hakim kəsildi. Milyonlarla insan daş sükutuna qərq oldu. Elə bilirəm ki, buludsuz səmada sayrışan ulduzlaracan çatdı bu xəbər".

Son dərəcə təsirli, ürək ağrısı ilə yazılmış sətirlərdir. Bu sözləri həyəcansız oxumaq qeyri mümkündür. Hər bir məqam, hər bir fikir və cümlə oxucunu düşündürür. Yuxarıda əsərdən nümunə gətirdiyimiz məqamların zirvəsi kimi yadda qalan daha bir fikir: "Ayın 13-də səhər küçəyə çıxdım. Elə bil ki, Bakı rəngini dəyişmişdi, Bakının büli bükülmüş, çiyinləri düşmüş, yazıqlaşmışdı. Azərbaycan mənim gözlərimdə bircə gecənin içində qocalmış, ağappaq qar kimi

saç-saqqalın içində itmişdi. Hər kəsin üzündə bir sual donub qalmışdı. Adamlar çaş-baş kimi idilər. Xalq nə iləsə özünü ovundurmaq daxilində onu dara çəkən suala cavab tapmaq istəyirdi. Biz neyləməliyik?

Bu dərdi necə ovundurmaq olar?

Heydər Əliyev bütün ömrü boyu nikbin yaşamış insan olub. Onun bütün addımları qətiyyətli idi. Həmişə inama söykənirdi. Boynuma alıram, həmin suallar məni də düşündürürdü".

Misal gətirdiyimiz, hüzn və kədərlə dolu bu parçalarda sözlərin, fikirlərin hər birinin məntiqi, bədii çalarları var. Daha doğusu, bu cümlələrdə, ifadələrdə, hər bir sözdə tariximiz var, həyat var. Əsərin gedişatında müəllif onu düşündürən sualları çox nikbin bir tonda, Vətən tarixini yaradan böyük öndərin həyatı və taleyi fonunda çox parlaq şəkildə cavablandırır. Ölkənin, xalqın həyatında fövqəladə rol oynamış insanla bağlı hadisələri, onların mahiyyətini, həyatiliyini tam dolğunluğu ilə nümayiş etdirir. Azərbaycan tarixinin parlaq bir günəş şüası olan, hər tərəfə öz nurlu şəfəqlərini saçan böyük şəxsiyyətin, qüdrətli insanın işığının izi ilə addımlayan yazıçı, bu işığın nə qədər möhtəşəm, nəhəng olduğunu ön bənzərsiz ifadələri və düşüncələri ilə qələmə alır.

Yazıçı bundan əvvəl də böyük şəxsiyyətin həyat yolunu tərənnüm edən üç əsər - "Zəfər yolu", "Həqiqət" və "Amalın işığında" kitablarını oxucuların diqqətinə çatdırmışdı. Bu əsərlərin hər birində ədibin öz sözü, kəşfləri olmuşdu. Doğrudur, mərhum prezidentin ömür yolu hələ kəşf olunmamış xəzinələrlə çox zəngindir. Əsrlər ötəcək, illər keçəcək Azərbaycanın milli sərvəti olan bu xəzinələr zaman-zaman kəşf olunacaq və bu qüdrətli insanın ömürb yolu gələcək nəslə əbədi bir örnək olacaqdır. Hüseynbala müəllim kitabına həqiqətən gözəl bir ad verib - "İşığın izi ilə". Bu işığın izi məlumdur. Bu Heydər Əliyev işığıdır. Müəlif də bu sönməz işığın izi ilə gedir və çalışır ki, bu izi itirməsin. Əgər Allah bir şəxsə öz işığını veribsə, deməli, onu bizdən seçdirib. Seçilmiş insanları isə adilər kimi qəbul etmək, onlar kimi hərəkət etməyə vadar etmək olmaz. Böyüklüklərini, möhtəşəmliklərini olduğu kimi qəbul etmək lazımdır. Bunu müəllif özü də əsərində çox gözəl və tam açıqlığı ilə etiraf edir. "Bizim üçün Heydər Əliyev haqqında danışmaq onsuz da çətindir. Onun çoxşaxəli fəaliyyəti, bir insan, bütöv şəxsiyyət kimi zəngin və mənəvi aləmi bütün əhatəliyi ilə təsvirə gələ bilməz. Onun obrazını tam dolğunluğu ilə yaratmaq üçün biz hələ onu tam dərk etməliyik. Bu dərketmə dövrü özü ayrıca mərhələdir, xalqımızın keçəcəyi çox ciddi, tarixi bir dövrdür".

Birnəfəsə oxunan kitabda nə artıq söz və artıq ifadə, nə də təkrarçılıq gözə dəymir. Son dərəcə sadə bir danışıq dilində yazılmış bu kitabın ən böyük dəyəri, qiyməti məhz budur. Çünki Heydər Əliyev kimi dahi bir şəxsiyyətin xarakterini açmaq, həyatını dəyişmiş insanın ölməzliyini əbədilik zirvəsinə yüksəldiyini tərənnüm edən əsərdə buna ehtiyac yoxdur. İllər bir-birini əvəz edəcək, fəsillər hər dəfə dəyişəcək, lakin bu böyük qüdrət sahibinin ucaldığı zirvə daim dəyişməz

qalacaqdır. Ona görə ki, Vətən sevgisi ilə, xalq məhəbbəti ilə ucalan zirvəni heç bir qüvvə dəyişə bilməz.

Yazıçının ürəyindən keçən ağır, kədər, bütün millətin ağrısıdır, kədəridir, hamımıza doğma olan bir ağrıdır. Müəllif yazır: "Dünyada mənə elə bir kimsə göstərin ki, özünün cismani ölümü ilə, insanları bu qədər birləşdirə bilsin, bir araya gətirə bilsin. Deyirlər ki, Bakı nadir hallarda belə kədər görüb.

...Qırx milyonluq Azərbaycan xalqının ümummilli lideri Vətən torpağına qolvuşmaq üçün gəlib. Hüzn və kədər içində rəhbərin adına layiq qürurla onun cənazəsini çiyinlərində asta-asta, addım-addım gətirən əsgərlərə baxanda elə bilirəm dağlar yeriyir. Sakit hava altında uyuyan Xəzər təlatümə gəlir. Yeriyən isə əsgərlərdir. Bəli, bu əsgərlər çiyinlərində elə qoca Qafqaz qədər - sıralanmış dağlar qədər, elə bu Xəzər qədər kədər gətirir. İlahi, kədərin necə də gur işığı varmış. Bütün Azərbaycan bu kədərin işığına gəlir.

...Heydər Əliyevin gedişylə Azərbaycan öz rəngini, Vətən timsallı övladını itirdi. Azərbaycanın çəkdiyi ağrı, iztirab hədsiz idi. Azərbaycan onu öz övladı kimi böyütmüş oğlunu itirdi".

Müəllif ümumxalq kədərini, millət dərdini təsvir edərkən tərənnüm etdiyi qəhrəmanın daxili aləmini, onun böyüklüyünü, qüdrətini, ölməzliyini, əbədi olaraq yaddaşlara həkk olunduğunu bir daha öz sevgili oxucusuna nümayiş etdirir.

Bəli, tarix boyu söz və qələm qüdrətli olub, gücünü göstərib, hətta cəmiyyəti, həyatı dəyişə, istiqamətləndirə bilib. Son dərəcə nəcib və xeyirxah bir insan olan Hüseynbala Mirələmov da belə sözün, belə qələmin sahibi olub. Böyük sənət əsərləri həmişə dövrün ruhu ilə, zamanın hökmü ilə yaranır. Belə əsərləri qələmə alan yazarlardan isə bir ciddilik, mən deyərdim ki, hünər tələb olunur. Hüseynbala Mirələmov ustad bir söz və qələm sahibi olduğu kimi, həm də hünər sahibidir. Və bunu bütün əsərlərində dəfələrlə sübuta yetirib. Heydər Əliyev kimi bir dühanın ruhunu dindirmək üçün gərək dövrün zövqünə qalxa biləsən, ona layiq münasib söz tapasan. Müəllif bu işin öhdəsindən də şərəflə gəlib, böyük öndərin bənzərsiz bir həyat tablosunu yaradıb. Xalqın əvəzsiz liderinin ad günü ərəfəsində işıq üzü görmüş "İşığın izi ilə" essesi həqiqətən əbədiliyə qovuşmuş yenilməz bir insana həsr olunmuş elegiyasıdır. Mavi Xəzərin həzin laylasını, ana Kürün əzəmətini, Xan Arazın nisgilli, qəmli çırpıntılarını özündə əks etdirən bir nəğmə, vəzn və qafiyəsi olmayan poetik bir şeriyyətdir.

Görkəmli söz ustadının yaradıcılığını uzun illər izləyən, hər bir uğuruna, qələbəsinə qəlbən sevinən, taleyinə onunla bir qəzetdə işləmək qisməti düşən bir dost kimi, istedadlı ədibimizdən, qəlblərimizi bundan sonra da həmişə vətənpərvərlik hissləri ilə, Vətən sevgisi ilə kövrəkləndirən yeni-yeni əsərlər gözləyirik.

Sonda bu yazını, hamımızın qəlbən sevdiyi, böyük hörmət və rəğbət bəslədiyi istedadlı yazıçı-publisist, gözəl jurnalist İmamverdi İsmayılovun ziyalı dostu Hüseynbala Mirələmov haqqında dediyi bu xoş sözlərlə bitirmək istəyirəm:

"Oxucusu olmayan yazıçı bədbəxtdir, boynu bükükdür. Əslində, yazıçını yazıçı edən, əyilməz, yenilməz şəxsiyyətə çevirən istedadı, qələmi ilə yanaşı, həm də oxucu məhəbbətidir. Deyim ki, bu sarıdan Hüseynbala müəllimin bəxti gətirib. O, elə yazır ki, oxucu auditoriyası qazana bilir, oxucusunu sevir, onun istəklərini, yaşantılarını duyur, oxucusu da bu sevgiyə məhəbbətlə cavab verir.

...Çox şükürlər ki, siz bu ucalığı qazanmısınız. Sizin kimi adamlar istər təkcə iş adamı-rəisi əzəm olsun, istər təkcə adi fəaliyyət göstərsin, istər yazıçı-publisist kimi, fərq etməz, o hər sahəni ayrılıqda ucaldacaq və öz şərəfli yerini tutacaq.

Lakin ən yaxşısı budur ki, siz özünüzdə bu istiqamətlərin hamısını cəmləyə bilmisiniz. Bunu ancaq yüksək istedad sahibləri elə bilər və sizin ləyaqətinizin bir cəhəti də burda açılır. İpək xasiyyətinizlə, saf amalınızla, işıqlı mənəviyyatınızla. Siz saf, təmiz, parlaq mənəvi mühit yaradan insanlardansınız".

Yaradıcı bir insanın, tanınmış ziyalının öz istedadlı qələm dostu haqqında dediyi qəlbdən gələn bu gözəl, bu mənalı sözlərindən sonra heç bir şərhə ehtiyac yoxdur. Təkcə onu demək istəyirəm ki, Ulu Tanrı sənə yar olsun, Hüseynbala müəllim!

Akif Aslan (Quliyev)

# YAZIÇI-DRAMATURQ HÜSEYNBALA MİRƏLƏMOVUN ƏSƏRLƏİNİ OXUYARKƏN

Mən onu sərlərindən tanıyıram. Təsəvvürümdə torpağına, məmləkətinə ürəyində Vətən boyda sevgi daşıyan və insanları bu müqəddəs sevginin işığına tapınmağa hazırlayan bir ziyalının surəti yaranmışdı. Kitablarını oxuduqca ona yaxınlaşırdım və mənə elə ki, biz çoxdan tanışıq, əsərləinin də ilk oxucusu elə mənəm. Nədənsə məndə belə bir inam yaranmışdı ki, biz nə vaxtsa görüşəcəyik və mən əsərləri barədə düşündüklərimi, fikirlərimi onun özünə söyləyəcəyəm...

...Və biz görüşdük. Bu görüşü nə mən planlaşdırmışdım, nə də o gözləyirdi. Elə-belə, qəflətən, öz-özünə alındı bu görüş. Yanılmamışdım. Hüseynbala müəllim elə təsəvvürümdə canlandırdığım insanın özü idi.

Söhbətimiz xeyli çəkdi. Nədən danışdıqsa, axırı gəlib ədəbi yaradıcılığın, çağdaş Azərbaycan ədəbiyyatının hazırkı durumunun üzərində dayandı. Danışdıqca hiss edirdim ki, onu narahat edən təkcə ədəbiyyatımızda yaranmış durğunluq, ətalət deyil, Hüseynbala müəllim həm də başı bəlalalr çəkmiş bu məmləkətin övladı kimi, vətəndaşı kimi daim narahatdır. Söhbət etdikcə, Azərbaycanın dünəni, bu günü və gələcəyi ilə bağlı fikirlərini dinlədikcə, onun publisistik yazıları, ədəbi əsərləri gözlərim önünə gəlirdi və mən bir daha inanırdım ki, Hüseynbala müəllimin ürəyindən süzülüb gələn bu sözlər qəlbinin səsidir, vətəndaş mövqeyinin ifadəsidir və bu sözlər quraşdırılmayıb, amalı, məqsədi bəlli olan bir insan heyətinin qayəsidir. Elə orada qəlbimdə Hüseynbala Mirələmovun yaradıcılığı barədə düşündüklərimi kağız üzərinə köçürmək istəyi qərarlaşdı.

Budur, onun bir neçə kitabı yazı masamın üstündədir. "Hansından başlayım?", "necə başlayım?" sualları məni uzun-uzadı götür-qoy etməyə vadar eləyir. İstər-istəməz yazıçının 2003-cü ildə "Gənclik" nəşriyyatında çapdan çıxmış "Xəcalət" adlı kitabına üz tuturam. Çünki hələ kitabda toplanan eyniadlı povesti, "Güllələnmiş heykəllərin fəryadı" adklı ədəbi esseni və "Vİcdanın hökmü" dramını oxuyanda məndə belə bir fikir formalaşmışdı ki, Hüseynbala Mirələmov Qarabağ müharibəsinin iştirakçısıdır, Xocalı faciəsinin ah-naləsini ürəyində daşıyan soydaşlarımızdan biridir. Şuşadan didərgin düşmüş qaçqın taleli bir insandır. Bəlkə də bu tək mənim qənaətim deyil, onun əsərlərini oxuyan hər bir oxucunun gəldiyi nəticədir. Bəlkə də kitaba ön söz yazan filologiya elmləri namizədi Vaqif Yusifli və şair Əli Mahmud məhz elə bu səbəbə görə belə deyiblər: "Müəllifi yaxından tanımasaydıq, belə bir qənaətə gələrdik ki, avtobioqrafik əsərdir, baş qəhrəmanı isə Hüseynbala Mirələmovun özüdür".

"Xəcalət". Bu povesti oxuyanda istər-istəməz Qarabağ müharibəsinin, 90-cı illərin ictimai-siyasi mühitinin iştirakçısına çevrilirsən. O dövrkü hadisələrin idarəolunmaz axınına qpşulmalı olursan. Xocalı faciəsinin, Şuşa itkisinin, Ağdam işğalının ağrısını-acısını dadırsan, kimlərin bu torpağı Vətən sandığının, Vətənin kimlərə oğul dediyinin şahidi olursan. Elə əsərin qəhrəmanının adı da Vətəndir.

Bəlkə də yazıçı bu adı simvol seçməyib, bəlkə də müəllif doğma torpağını bütün varlığı ilə sevən, Vətənin içində doğulub boya-başa çatdığı Qarıqışlaq kəndini Vətən sanan Vətən obrazını yaratmaqla bizlərə demək istəyir ki, hər birimiz Vətən olmalıyıq, hər birimiz Sultan bəyin qəhrəmanlığını öz içimizdə yaşatmalıyıq ki, bu qədim torpaq yağıların tapdağında qalmasın.

Əsərdə Qarıqışlaq adına rast gələndə bir anlığa yerimdəcə donub qalıram. İlahi, bu, bir vaxtlar mənim, necə deyərlər, oylağım olan Qarıqışlaq kəndidir ki... Ulu Həkəri çayının sol sahilində zirvəsi göylərə dəyən dağlar, sıldırım qayalar, yaşıl ormanlar arasında qərar tutan laçın rayonunun Qarıqışlaq kəndi! Şübhəsiz, "Xəcalət"in məkan "qəhrəmanı" kimi seçilən Qarıqışlaq bu gün yağı düşmənin ayaqları altında inləyən Qarabağ torpaqlarının ümumiləşdirilmiş simvoludur. Əslən Qarıqışlaqdan olan əsərin qəhrəmanı Vətən də yurd-yuvası, eli-obası yağmalanan yüz minlərlə qaçqın-köçkün soydaşlarımızın ümumiləşdirilmiş obrazıdır. Mən bilmirəm, Hüseynbala müəllim nə vaxtsa Qarıqışlaq kəndində olub, yoxsa yox? Lakin bu kəndə, onun sakinlərinə dərindən bələd olduğum üçün tam səmimiyyətimlə deyirəm: əsərdə Qarıqışlağın, bu obanın insanlarının xarakterləri, zahiri təsvirləri, daxili aləmləri elə yüksək sənətkarlıqla təqdim olunub ki, şəxsən Qarabağın bu gözəl guşəsini tanıyan bir insan, bir jurnalist kimi mənim gözlərim qarşısında, düşüncəlrimdə ötən əsrin 70-80-ci illərində gördüyüm Qarıqışlaq, bu kəndi dörd bir tərəfdən əhatəyə almış Ağoğlan, Mirik, Hacılar, Bozlu, Minkənd, Kamallı, Qarakeşiş kəndləri, o cənnət diyarın bağlı-bağatlı evləri, buz bulaqları, yam-yaşıl meşələri sevimli şairimiz Məmməd Araz demiş, "min illərdir belə axan Həkəri"nin ayna suları, qulaqbatıran şırıltısı, daha nələr, nələr... canlanır. Əsərin qəhrəmanı Vətənin daxili aləminə səyahət etdikcə, hələ o vaxtlar Qarıqışlaqda tanış olub dostlaşdığım dağ vüqarlı sözübütöv, özübütöv insanların - rəhmətliklər Teymur müəllimin, Çingiz müəllimin, kinomexanik Talışın və bu gün qaçqın-köçkün həyatı yaşamağa məhkum olmuş Vaqif müəllimin, Əhmədin, həmkarım Elmanın, tükançı Voroşlin... simaları kino lenti kimi gözlərim önündən ötüb keçir. Əsəri oxuduqca bir daha əmin oluram ki, Hüseynbala Mirələmovun "Vətən"i elə mənim yaxından tanıdığım o insanlardır.

Yazıçı Vətən obrazını yaradarkən ümumiləşdirmələr zamanı sözün bədii təsir vasitələrindən, psixoloji mühakimələrdən, real səciyyələndirmədən ustalıqla istifadə edərək öz qəhrəmanını oxucuya bütöv, qürurlu, ləyaqətini hər şeydən üstün tutan, bütün varlığı ilə məmləkətinə bağlı olan, itkilərə - ana itkisinə, varidat itkisinə mətanətlə dözən, lakin torpaq itkisinə, el-oba itkisinə dözə bilməyən azərbaycanlı kişinin obrazını görürük. O, həyatın sınaqlarına, özünəməxsus inamla tab gətirir, üzləşdiyi çətin şərait onun əzmini, sabaha inamını qıra bilmir. Xəstələnmiş qızını həkimə aparmağa, pulu olmasa da Vətən sarsılmır, heç kəsdən umub-küsmür. Öz ailəsinin dərdini faciəyə çevirmir. Çünki o, evini Vətən, ailə-uşağını millət sayan kişilərdən deyil. Çünki onun qəlbinə hakim kəsilən dərd torpaq dərdidir, məmləkətin düşmən tapdağı altından qalan bir parçasının dərdidir, əsrlikdə ləyaqəti alçaldılan qız-gəlinlərimizin dərdidir,

tifaqı dağılan kənd-kəsəklərimizin, şəhər-qəsəbələrimizin dərdidir. Bu dərd Vətəni vaxtından əvvəl qocaltsa da, qəddini əyə bilmir. Çünki o, yaşamaq, torpaqlarımızı azad, düşməni məğlub görmək istəyir. Bu, Vətənin sabaha olan inamıdır. "Qul bazarı"nda, yazıçı demişkən, iynə ilə gor qazanda da, onun-bunun evində hörəndə də, suvaq çəkəndə də bu inam onu daim müşayiət edir, gözləri daim Qarabağa, Qarıqışlaq kəndinə gedən yollara dikilir. Dünyada Vətən üçün ən əzəmətli yol bu yoldur. Dostu Murad ona yeni mənzilin ordenini təqdim eləyəndə belə tikintisi yarımçıq qalmış xəstəxana binasında məskunlaşan Vətən doğma Qarabağı, Qarıqışlaq kəndini düşünür. Yaxşılıqlarına görə dostuna minnətdarlığını bildirir və deyir ki, mənim bu xəstəxana binasından çıxmağım üçün iki yol var: biri Qarıqışlağa-Qarabağa gedir, biri isə qəbiristanlığa. Yazıçı sanki bununla ev-eşiyindən didərgin düşmüş insanların qəlbinin hökmünü, şüarını bəyan edir.

Əsərdə vətən hər şeyini itirmiş insan kimi təqdim olunmur. Vətənin ləyaqətli, özü kimi dözümlü həyat yoldaşı Qəmxar, etibarlı dostları Murad, Mahmudəli, Timurçin var və onlar Vətəni sevirlər, ona güvənirlər.

Uzun müddət dostların bir-birindən xəbər tutmaması isə yazıçı tərəfindən qınağa çevrilmir. Elə bu vəziyyətin özünün də Qarabağ savaşının faciəsi olduğu incə şəkildə vurğulanır. Povestin "Xəcalət" adlandırılması da təsadüfi deyil. Sanki yazıçı bununla xalqın qeyrətini, mənliyini silkələyib oyatmaq istəyir, vətən torpaqlarının hələ də düşmən tapdağı altında qaldığı üçün bizim hər birimizin xəcalət çəkməli olduğumuzu xatırladır. Müəllif əsəri böyük simvolik məna kəsb edən uğurlu bir sonluqla tamamlayır: "Dan üzü qızarırdı... Sabah açılmaqda idi. Yeni dövrün, yeni zamanın daha bir ümid sabahı... Üfüzdə aydın, al-qırmızı Günəş doğulurdu... Gecənin təkərli arabası səssiz-səmirsiz üfüqdən uzaqlaşırdı".

İlk hissədən ibarət olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsinə ithaf edilən "Vicdanın hökmü" dramı Hüseynbala Mirələmovun yaradıcılığının digər cəhətini üzə çıxarır. Müəllif bu əsərdə bir tikə çörək dalınca Rusiya bazarlarına üz tutan azərbaycanlıların taleyini özünəməxsus ustalıqla xarakterizə edir. Əsərin baş qəhrəmanı Rəhim iki övladını, anasını kənddə qoyub uzaq Rusiyada, Raqozin bazarında çörəkpulu qazanır. Ömrü boyu vicdanın hökmü ilə yaşayan Rəhim müəllim üçün dünyada keçirdiyi hər gün əzabdır, işgəncədir. O, yolpulunun düzəlməsini gözləyir ki, Vətənə qayıtsın. Lakin hadisələr onun ölçüb-biçdiyi kimi cərəyan etmir. Rəhim müəllim gözləmədiyi ilə faciə ilə qarşılaşmalı olur... Erməni Aşotu özünün sədaqətli köməkçisi hesab edən Firudin - Fedya birdən-birə onun həyat yoluna çıxır. Bazarda reketçiliklə məşğul olan, öz həmyerlilərindən haqq toplayan, lakin Rəhim müəllimə toxunmayan, hətta ona hörmətlə yanaşan Fedya onu özünün ad gününə dəvət edir. Məclisdə Rəhim müəllim vaxtilə secdiyi Güllünü görür və öyrənir ki, o, Fedyanın arvadıdır.

Məqsədim əsəri bütün təfərrüatıyla xarakterizə etmək deyil. Təkcə onu deyə bilərəm ki, müəllif "Vicdanın hökmü"ndə süni dramatik səhnələr yaratmaq

meylindən uzaqdır. Əxlaq kateqoriyasını tapdalayan, Vətən sevgisindən, torpaq həsrətindən uzaq olan, milli-mənəvi dəyərlərin nə demək olduğunu dərk etməyən Firudin obrazı da, məkrli erməni Aşot da, lap elə yaşadığı həyata müəmmalı münasibət bəsləyən Güllü də bizim yaxından tanıdığımız insanların prototipləridir. Bu əsərdə hadisələrin inkişafı nəticədə Qarabağ müharibəsinə istiqamətlənir və yazıçı öz niyyətinə məhz Vətən torpağında qalır. Rusiyada, ad günü məclisində Güllünü qucaqlamaq istəyən Aşotun üstünə atılan, "Rəhim! Padla, sən mənim dostuma əl qaldırırsan?" - deyə Aşotu müdafiə edən Firudin qatilinə çevrilən Rəhim müəllim aradan çıxır, Vətənə dönür. Cəbhəyə gedir, torpaqlarımızın müdafiəsinə qalxır və... Vətən yolunda da şəhid olur.

Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi üslub və manera baxımından, ədəbi-bədii dəyərləri nöqteyi-nəzərindən yenidir, maraqlıdır. Esse oxucunu elə ilk cümlələrindən aludə edir. Onun marağını, qəlbini və təmkinini səfərbərliyə alır. Abidələr "gülüstanı" Şuşanın işğalından 10 il ötdüyündən (ədəbi esse 2002-ci ildə qələmə alınıb) Vətənimizin bu ecazkar guşəsinin ağrı-acısının kökünü, səbəbini XIX əsrdə qələmə alınmış sənədli materiallarda Xurşudbanu Natəvanın qəzəllərində, Vaqifin "Görmədim" müxəmməsində, "Mənə nə var?" deyən xanların, "Məndən ötdü, qardaşıma dəydi" çəkişməsində axtarır.

Şuşanın işğalı yazıçını için-için yandırır, yaxır. "Duyğuları on ildir yazıram... Ölə-ölə yazıram. On ildən bəri təkrar-təkrar qəlbimdə kədərlə oxuduğum nəğməni yaza-yaza ölürəm". Bu sətirləri elə-belə, hissiz, həyəcansızız oxumaq mümkün deyil. Bu sözlər adi sözlər deyil. Torpağı yağı tapdağı altında qalan və bu itkinin ağrısından qovrulan bir Vətən oğlunun, bir ziyalının, bir VƏTƏNDAŞIN ürəyinin səsidir, qəlbinin naləsidir, içinin üsyanıdır. "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesini nəinki Hüseynbala Mirələmovun, eləcə də çağdaş ədəbiyyatımızın uğurlarından biri saymaq olar.

"Sözə pənah gətirmək haqqa sığınmaqdır". Bu sözləri 2002-ci ildə "Azərbaycan" nəşriyyatında çapdan çıxmış "Qayada çiçək" adlı kitabına ön sözdə Hüseynbala Mirələmov özü yazıb. Haqqa tapınmağı sözə pənah gətirməkdə görən yazıçı qələmə aldığı bütün əsərlərində bu leytmotivə sadiq qalır, öz ədəbi ümumbəşəri idealları, ümumbəşəri dəyərlərin kontekstində görür və təqdim edir. Kitab "Qayada çiçək" hekayəsi ilə başlanır. Açığını deyim ki, əsəri oxumamışdan öncə qəlbimdə belə bir sual doğdu: "Niyə məhz qayada çiçək?". Hekayəni oxuyandan sonra hər şey mənə aydın olur. Yazıçı bu əsərində bir insan ömrünün hamar yollarını, cığırlarını, enişini, yoxuşunu, sərt döngələrini məharətlə verə bilib. Oxucu hekayənin qəhrəmanı Məftunu sanki çoxdan tanıyır.

Bəlkə də elə buna görə onun hissləri, düşüncələri adama doğma görünür. "Zində dağa" qalxmaq istəyən Məftuna qoşulursan, öz ömür yolunun kitabını vərəqləyən bu insanın yol yoldaşına çevrilirsən. Mənim düşündüklərimə görə, yazıçı hamar şossedən dağın zirvəsinə qədər olan məsafəni insanın ömür yolu sanır və bu yolun daş-kəsəkli yoxuşlarını qalxa bilən, sərt döngələrini keçməyi

bacaran insanları zirvədə görür. Bu zirvənin qayalarında bitən çiçəklər öz ömrünü ləyaqətlə başa vuran insanlara çatan ilahi paydır. Qayada çiçəyin bitməsini görmək isə həs kəsə nəzib olmaz, bu çiçəyin ətrini yalnız zirvəyə çata bilən insanlar qoxlaya bilərlər.

Hüseynbala Mirələmovun əsərlərini diqqətlə oxuyanda bir həqiqəti də duyursan: müəllif operativ mövzu düşünmür, nədən yazmaq barədə baş sındırmır, gündəlik həyatımızda baş verən, cərəyan edən hadisələr, onun yazıçı təxəyyülündən, müşahidələrindən yan ötmür. Ona görə də səmimilik yazıçının hər bir əsərinin ruhuna, mayasına hopur. O, bütün əsərlərindən oxucularına sarı boylanır, onları həyəcanla, nigaran-nigaran izləyir və hər əsəri oxuyub qurtarandan sonra baxışlarından min bir sual oxunur.

Budur, yazıçının daha bir maraqlı qəhrəmanını da, oxucuları da cavablı-cavabsız suallar qarşısında qoyan "Yeni həyat" hekayəsi diqqətimi cəlb edir. Gültəkinin işə düzəlməsindən sonra güzəranlarının dəyişdiyini, evlərində firavanlıq yarandığına görə Marat arvadından nigaran qalmağa başlayır, onun bəzənib-düzənib yarıçılpaq işə getməsindən şübhələnir. Gültəkinin yubkasına baxıb "Ay Allah, "razrez"ə bax... O boyda da "razrez" olar? Axı, bu neyçündür, kimin üçündür?" – deyə düşünür. "O cür gözəl, yarıçılpaq qadın sırtıq pijonların arasından salamat çıxa bilərmi?". Bu sualı da Marat öz-özünə verir, bütün bir iş gününü qəlbində dolandırdığı suallarla başa vurur. Evə gələndən sonra narahatçılığına, səhərdən bəri ürəyində yığılıb qalan qəzəbinə son qoyulur. Öz-özünə düşünür ki, "bütün bu otaqlardakı cah-cəlal, özünün qayğısız və məğrur davranışı, iş yerində il boyu göstərdiyi xeyirxah əməllər, maaşından asılı olmayan müstəqilliyi, cibindəki pulu – hamısı Gültəkinin gözəlliyinə, çılpaq qollarına, yubkasına, "razrez"inə görədir".

Sonra yazıçı Maratın daxili aləmini olduğu kimi açıb göstərir: "Səhərdən gör nə axmaq fikirlərlə məşğul olub özümü üzürəm. Məndən on qat artıq adamların rvadları, qızları belə gəzmirmi?". Gültəkinin hərəkətlərinə və özünün dözümünə müxtəlif cür haqq qazandıran Marat, sonda yenə də cavabsız suallar qarşısında aciz qalır. Hekayə maraqlı sonluqla və sualla bitir. "...Beləcə Gültəkin zəngi basıb sürücü ilə qucağı dolu içəri daxil olanda Maratın ürəyində artıq səhərki düşüncələrdən əsər-əlamət qalmamışdı. Amma doğrudan da, görsən, Gültəkin bir dəstə pijonun içində öz namusunu qoruya bilirmi?"

Ümumiyyətlə, Hüseynbala Mirələmovun yaradıcılığı çoxşaxəlidir və onun əsərləri məhdud mövzu çərçivəsində deyil. O, geniş diapazona malik bir yazıçıdır və insanı, insanlığı narahat edən bütün mövzular Hüseynbala müəllim üçün doğmadır. Şübhə yoxdur ki, biz oxucular həyatının və yaradıcılığının ən məhsuldar, ən qaynar mərhələsini yaşayan Hüseynbala müəllimin yaxın gələcəkdə hələ bir neçə-neçə gözəl əsərləri, neçə-neçə ədəbi qəhrəmanları ilə tanış olmaq imkanı əldə edəcəyik. Bu sadə, dərin müşahidə qabiliyyətinə malik istedadlı yazıçı barədə qeydlərimi bir arzu ilə bitirmək istəyirəm: kaş, Hüseynbala Mirələmovun növbəti əsəri müvəqqəti uduzduğumuz Qarabağ müharibəsindəki

qabiliyyətimizdən, növbəti qəhrəmanları isə bu qabiliyyət salnaməsini yaradacaq Vətən amallı, Rəhim müəllim amallı igid insanlarımızın qələbə müjdəsindən, qələbə sorağından bəhs edəydi.
Amin!..

Əhməd Qurbanoğlu

# HEYKƏLLƏRİN FƏRYADI YERDƏ QALMAZ

8 may 1992-ci il. Məsum bir tarixi gün. Şuşanın işğal günü.
Artıq on bir ildir ki, Qafqazın konservatoriyası sayılan gözəl Şuşamız yağı düşmən tapdağı altındadır. Cıdır düzü, İsa bulağı, Topxana meşəsi, Daşaltı, Turşsu, Bazarbaşı, Şirlan, Meylan bulağı... işğal altında inim-inim inləyir. Güllələnmiş heykəllərin acı fəryadı ərşi-fələkə yüksəlibdir. Şuşa "Qarabağ şikəstəsi"nə, "Vətən bağı" gülüstandı, yox içində "Xarı bülbül" zümzüməsinə, Xanın "Şuşada axşamlar yanır ulduzlar" (ancaq 11 ildir ki, bu işıqlar daha yanmır, ulduzlar parlamır, Şuşa dərin zülmətə qərq olubdur) zəngüləsinə həsrət qalıb. On bir ildir ki, göyə ucalan azan səsinə, "Allahu əkbər" sədasına həsrət qalan Gövhər Ağa məscidinin minarəsində yuva qurmuş quşların civiltisi eşidilməkdədir.

Şuşa xalqımızın ən ağrılı yeridi. Şuşa Qarabağ kimi yaralı yerimizin ən ağrılısıdı. Mübarizələrlə dolu bir tarix yaşayan, Azərbaycanın mədəniyyət ocağı, musiqi beşiyi, şer-sənət məbədi olan bu müqəddəs məkan 11 ildir ki, gözümüzü yolda, ürəyimizi sək-səkədə, ümidlərimizi Tanrı dərgahında qoyubdur. Murdar yağı tapdağında olan işğal olunmuş torpaqlarımızı yad etmçək vətənimizin hər bir övladı üçün həddindən artıq çətindi. Özəlliklə də o torpaqlarda doğulub-böyüyən, o yerlərdə gəzib-dolaşan, oraların havasını udan insanlar üçün daha çətin, daha ağrılıdı. Axı, onların o yerlərlə bağlı nə qədər unudulmaz xatirələri, əziz-xələflərinin qəbirləri qalıb. Əslində onlar bu on bir ildə heç nəyi unutmayıblar. Şuşanın dərdi, acısı, göynərtisi onlarla olubdur.

Şuşa həm də təkcə insanların qadir əllərilə meydana gətirilmiş maddi-mənəvi abidələrlə bəzənməmişdi, ora həmçinin Tanrının yaratdığı, təbiətin bəxş etdiyi abidələrlə də zəngin idi. Məhz bu məkanın itirilməyi, onun işğal altında qalmağı oralı olanların qəlbindən heç vaxt çıxmaz. Şuşanı itirməyin yanğısını unudulmazdır.

Şuşa sözün gerçək anlamında böyük mədəniyyət ocağıydı. Bu diyardan neçə-neçə dahi sənətkarlarımız pöhrələnibdir. Onlar öz nadir sənət incilərinə xalqımızı dünyada tanıtdırmış, başımızı uca etmişlər. Doğma Azərbaycanımızın ayrılmaz hissəsi olan Qarabağ mövzusunda sanballı əsərlər müəllifi kimi tanınan yazıçı Hüseynbala Mirələmovun ürək yanğısı ilə qələmə aldığı "Güllələnmiş heykəllərin fəryadı" essesində sənət korifeylərimizin heykəllərini odlu silahlarla nişangaha çevirib yaralayan erməni nadanlarının yaramaz əməllərindən, murdar xislətindən söhbət açılır.

Əsər tarixi faktlar əsasında qələmə alınıb. Burada İbrahim xanın, Ağabəyim Ağanın, Gövhər Ağanın ruhları, Vaqifin, Natəvanın, Nəvvabın və habelə Üzeyir bəyin, Bülbülün heykəlləri dilə gəlir, oxucu ilə "dərdləşir", öz etiraflarını söyləyir, narahatlıqlarını bildirir, fəryad qoparırlar. Onlar xalqı amansız düşmənə qarşı birləşməyə çağırır. Əgər xalq birləşməsə, sözünü bir yerə qoymasa, bu yaraların sızıltısı uzun çəkəcəkdir.

Esseni oxuduqca tarix boyu məkrli ermənilərin törətdikləri çirkin, bəd əməlləri, nankorluqları, vəhşilikləri, yaramazlıqları gözlərimiz önündə canlanır. “Səhl-sumbatların, Vartanların iblissayağı hiylələri sayəsində kürəyimizə yağı xəncəri”nin saplanmasından dərs almadığımız nəzərə çarpdırılır.

Əsərin bir yerində müəllif Natəvanın heykəlinin dili ilə faktları sadalayaraq yazır ki, ermənilər işğala çoxdan başlayıblar. Onlar hətta, klassik şərq şairləri tərəfindən qələmə alınmış “Fərhad və Şirin” əfsanəsindəki Şirinin “erməni gözəli, erməni şahzadəsi olduğunu”, musiqimizdə, tətbiqi sənətimizdə, xalçaçılığımızda, abidələrimizdəki orijinal öznəməxsusluğumuzu” da həyasızcasına mənimsəməkdən ötrü dəridən-qabıqdan çıxırlar. Dastanlarımızı, xalq rəvayətlərimizi, nağıllarımızı və başqa maddi-mədəniyyət abidələrimizi özlərininkiləşdirib bu yaramazlar, hətta XX yüzillikdə bütün dünyanın gözü qabağında Üzeyir bəyin əsərlərini həyasızcasına öz adlarına çıxıb Amerikada çap eləyir və yayırdılar. Məgər bunları unutmaqmı olar? Elə unutqanlığımız da başımıza bəlalar açmırmı?

Bədnam ermənilər sabahını, gələcəyini düşünən bir xalq deyildir. Onlar həmişə onun-bunun fitvasına uymuşlar. Türkiyənin içərisində Türklərin özlərindən yaxşı yaşadıqları (on-on beş il bundan öncəyə qədər bunun Azərbaycanda da şahidi olmuşuq) halda rusların, ingilislərin, fransızların təhrikilə onlara qarşı çıxmış, “torpaq iddiası” ilə “Böyük Ermənistan” xülyasına qapılmışdır. Avropalılar vaxtilə Osmanlı imperatorluğunun Avropa qitəsində müəyyən yerləri idarəsi altında saxlamasını hüç cür sindirə bilmirdilər. Bundan ötrü müxtəlif avantüralara əl atdılar ki, Osmanlı dövlətini zəiflətsinlər və onun öz torpaqlarını ələ keçirsinlər. onların bu planı, ümumiyyətlə, Türkiyəni xəritədən tamamilə silmək məqsədi daşıyırdı.

Bu proseslər XIX yüzilliyin ortalarından başlayaraq güclənməkdəydi. Avropanın imperialist dövlətlərinin Türkiyəni parçalamaq cəhdləri, özəlliklə də dünya jandarmı rolunda çıxış edən çar Rusiyasından istifadə etmələri, onu Türkiyə üzərinə qışqırtmaları, bu baxımdan diqqətçəkici bir hal idi. Çar Rusiyası isə bu işə çox həvəslə və iştahla qoşulmuşdu. Onun əsrlərcə arzusunda olduğu İstanbulu, Bosfor və Dardanel boğazlarını ələ keçirməkdən yana fürsət axtarması və dəfələrlə türklərlə savaşlara girməsi yazıçı H.Mirələmovun ifadəsincə desək, “bu acgöz, çoxbaşlı əjdahanın” iştahanından xəbər verirdi.

Ermənilər məhz Qərbin və Rusiyanın böyük məqsdədlərinin əl tulaları və “peşka”ları idilər. türkiyəni daxildən də sarsıtmaq üçün onlardan məharətlə istifadə edirdilər. Süni surətdə ortaya atılan “erməni məsələsi” əslində ermənilərin deyil, gözlərini türklərin torpaqlarına dikmiş böyük dövlətlərin olaraq siyasi bir mahiyyət daşıyırdı. “Böyük Ermənistan”, “Dənizdən-dənizə Ermənistan” xülyası ilə yaşayan haylar da həvəslə ağalarının buyruqlarını yerinə yetirməkdən ötrü dəridən-qabıqdan çıxırdılar. 1890-cı ildən fəaliyyətə başlayan erməni terrorizmi nəticəsində, ta 1992-ci ilə kimi, müxtəlif tarixi zamanlarda yüz minlərlə günahsız türk amansızcasına qanına qəltan edilmişdir (Bəzi sənədlərə

görə, bu hadisələrə altı yüz min erməni, üç milyon türk qətlə yetirilibdir). XX yüzilliyin sonlarında erməni terrorizminin ikinci dalğası başlamış və yenə də çoxlu məsum insanlar vəhşicəsinə bu qanlı terrorizmin qurbanları olmuşlar. Erməni terrorizmi davam etməkdədir...
Eyni durum Azərbaycanda da zaman-zaman davam edibdirş Əsərdə canlanan Qarabağ hakimin İbrahim xanın səhv və etirafları nə qədər ibrətamizdir. O, özünü haqlı olaraq günahkar sayır və günahlarının çox olduğunu etiraf edir: “Torpağıma köçürülən, qovulan ermənilərin acından, soyuqdan qırılıb tələf olmasına yol vermədim. Əkin-biçin üçün torpaq verdim. Axırda mənə qənim kəsildilər. Xanlığı içindən Yən kimi doğradılar, qanımıza susadılar. Girəvə düşən kimi öz silahımızı özümüzə çevirdilər. Üzdə sadiq nökərimə, arxada namərd düşmənimə döndülər. Gözlərimin qabağına hörümçək kimi tor qurdular. Şöhrətim, nəfsim aldatdı məni. Qızlarını saraya dəvət edib qohumluq əlaqələri yaratdım. Bəd ayaqda qorudum onları. Vergilərdən azad elədim. Sonda bütün yaxşılıqlarını nankorcasına, xaincəsinə unutdular, Ermənilik taunu işini gördü. Dövlətimi dağıtdılar. Gah farsın, gah da rusun şirin vədlərinə aldandılar...”

Doğrudan da nə qədər ibrətamiz bir etirafdır! Məgər “Günahım yanınızda çoxdur, mənim övladlarım” deyən İbrahim xanın ruhu qarşısında sonrakı nəsil ibrət götürdümü? Həmin, səhvləri onun övladları – xalqımızın bir sıra nankor nümayəndələri də bu və ya başqa biçimdə təkrar etdilər. Məkrli erməni daşnakları isə xalqımızın geniş ürəkli olmasından, həlim xasiyyətindən, “duz-çörək kəsilibsə xəyanət eləməzlər” gənaətlərindən yararlanmışlar. İbrahim xanın qızı Gövhər Ağanın ruhu da atasına ermənilərin və rusların xəyanətkar münasibətini təsdiqlənir: “Atam İbrahim xanın xanimanı, qapısında çörək verdiyi erməni əsilli Məlik Gümşüdün fitvası ilə dağıdıldı. Onun bizə düşmənçiliyi sayəsində və Rusiya hökumətinə quyruq bulaması nəticəsində mayor Lisanoviç xan bağı yaxınlığında ailəmizdən və yaxınlarımızdan on yeddi nəfəri güllələdi, qəddarcasına qanına qəltan elə” deməklə tarixi faktları ortaya qoyur. Çar rusiyasından gördüyü etibarsızlığı, ermənilərin xəyanətini ömrünün sonuna qədər unutmayacağını söyləməkdən başqa qədər çarəsi qalmır. Tikdirdiyi məscidlərin tağlarını, minarələrini barbarcasına dağıdan erməni dığalarının yağlı dillərinə aldanan, hiylələrindən baş açmayan özündən sonrakı nəsli qınayır.

Ermənilərin dini katalikosundan tutmuş müxtəlif partiya və terror təşkilatlarına qədər hamısı körpə uşaqlara da, gənclərə də daim türklərin onlara düşmən olduqlarını öyrədir, bu fikri onlara aşılayır, öz icadları olan “erməni genosidi” uydurmasından faydalanmağı başlıca məqsədləri sayırlar. Bu məqsədlərinə nail olmaqdan ötrü hər şeyə, hər alçaqlığa məmnuniyyətlə gedir, hətta öz millətdaşlarını, öz xalqının nümayəndələrini öldürməkdən də vaz keçmir, onları qətlə yetirməyi belə gərəkli bilirlər. Türkiyədə yaşayan Artin Penik adlı bir erməni öz soydaşlarının imperialistlərin bu məqsədi oyununda iştirakçı

olduqlarına etiraf əlaməti olaraq özünü yandıraraq intihar etmişdir. Bundan başqa da çoxlu misallar gətirmək, çoxlu sənədlər göstərmək mümkündür. Məşhur yazıçı Pyer Zoti (1850-1923) 1920-ci ildə Fransa jurnallarının birində çap elətdirdiyi bir məqaləsində bu məsələdə türklərin heç bir günahı olmadığını yazır və erməni qızışdıranları günahlandıraraq lənətləyir. Amma ermənilər heç nəyə məhəl qoymadan öz fitnəkarlıqlarını amansızlıqla davam etdirirlər.

H.Mirələmovun bu əsərində tarixi olaylarla, özəlliklə də Qarabağın, Şuşanın tarixilə üz-üzə gəlirik. Şuşanın mədəniyyət və incəsənəti, orada yetişən ünlü tarixi şəxsiyyətlər haqqında bilgi almaqla bərabər, müəllifin təəssüf və istehzası, ələm və kədəri, qəzəb və nifrəti, ürək çırpıntıları, narahatlığı da əsərdə öz bariz əksini tapmışdır. Gözəl Şuşanın nadir incilərindən – “içəndə ruhu təzələyən” “İsa bulağının Zəm-zəm suyundan”, Torxana meşələrindən başqa heç yerdə bitməyən Xarı bülbülündən və s. söz açan müəllif sanki əsərini mürəkkəblə deyil, ürəyinin qanı ilə qələmə almışdır.

Yazıçı bu nadir incilərə barbarcasına münasibət göstərən, ünlü sənətçilərimizin heykəllərini atəşə tutanların aqibətini yaxşı anlayır. Ruhdan düşmür. Gələcəkdən ümidini üzmür, hər şeyin öz yerini tutacağına dərindən inanır və ümid edir ki, erməni daşnakları bu daş heykəlləri güllələyə, qırıq-qırıq edib sındıra bilərlər, ancaq, Şuşanın təmiz havasını, saf büllur sularını, müqəddəs torpağını dəyişə və daşıya bilməzlər. Həmin nəsnələr gec-tez yenə öz sahibinin – Azərbaycan türklərinin olacaqdır və o, buna heç şübhə eləmir. Çünki, zaman gələcək ki, haqq, ədalət öz yerini tutacaq, ermənilər tarix qarşısında cavab verməli olacaqlar.

“Güllələnmiş heykəllərin fəryadı” əsərini oxuduqca, hiss edirəm ki, onun müəllifi H.Mirələmov mövzunu işləməmişdən öncə Qarabağ tarixini, keçən yüzilliklərdə olub-keçənləri dərindən, mükəmməl öyrənmiş, təhsil süzgəcindən keçirmiş və çox ciddi, sanballı bir əsər ortaya qoymuşdur. Ağabəyim Ağanın və Gövhər Ağanın ruhlarının dilə gətirdiyi bayatılar, Bülbülün şövqlə oxuduğu Nizami Gəncəvinin “Sənsiz” qəzəlinin beytləri, Natəvanın “Ölürəm” rədifli qəzəli və s. şerlərdən verilən parçalar əsərin məzumununa və essenin daha məzmunlu, təsirli, maraqlı və oxunaqlı olmasına yardım etmişdir. Şerlər əsərin ruhuna uyğun seçilmiş, onun təsiredici gücünü daha da artırmışdır. Əsər son dərəcə aktual, məzmunlu və təsiredicidir. Dili şairanə, poetik və axıcıdır. Yazıçı sanki memar kimi əsərini gözəl sözlər, ifadələrlə hörmüşdür.

Əsərin adı da rəmzi anlam kəsb eləyir. Fəryad qoparmaq canlılara xas olan bir özəllikdir. Məgər cansızların fəryadı olmazmı? Yazıçı yaramaz düşmənin ağlasığmaz alçaq əməllərinə (əgər buna əməl demək mümkünsə) qarşı oxucuda kin, nifrət, qəzab oyatmaq məqsədilə belə etmişdir, hər halda öz yurddaşlarını silkələyib qəflət yuxusundan oyatmaq istəmişdir. Həmin sualın cavabını da elə müəllifin öz yazısından çıxarmaq mümkündür. Canlı kimi danışan bu heykəllər (elə ruhlar da) bir zamanlar “Şuşa” müqəddəsliyindən, “Şuşa ünvanlı dirilik

bulağından su içdikləri” üçün diridilrəl, öz doğmalarının biganəliyindən ötrü fəryad qoparırlar. Gün gələcək ki, onların fəryadı yerdə qalmayacaq. Bu yurdun əsl ləyaqətli övladları düşmənin “başını gürzə başı kimi” əzəcəklər. Güllələnmiş heykəllər də öz layiqli yerlərində yenidən ucalacaqlar.

P.S. Bu yaxınlarda Hüseynbala Mirələmov Avropa qitəsinin “European Market Researsh Center və Business İnitativə Direstions” təşkilatlarının təsis elədiyi “Platin era” mükafatına layiq görülmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi ilə əlaqədar III Bakı “Kitab Bayramı” sərgisində isə müəllifin “Xəcalət” əsəri nəsr nominasiyası üzrə birinci yeri tutmuş, yazıçı-dramaturqa ədəbi-kulturoloji diplom qazandırmışdır. Biz hər iki uğur münasibətilə Hüseynbala müəllimi tərkib edir, ona cansağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayırıq.